Qismətəli, yeməkxana iti, saralmış yarpaq

(Hekayə)

Qismət Əli əyalət teatrında baş rəssam işləyirdi. Bu gün-sabah yaşının əlli və teatrda işləməsinin iyirmi beş ili tamam olacaqdı. Dəfələrlə bu barədə teatrın müdirinə və əyalətin baş məmuruna, hətta mədəniyyətin lap böyük məmuruna xəbər göndərsə də, kağız yazsa da, hətta yaradıcılıq xasiyyətnaməsini öz əli ilə aparıb versə də müsbət bir nəticə hasil olmamışdı. Çünki onun yubileyini keçirmək üçün teatrda heç bir hazırlıq işi görülmürdü. Hətta, lap bu yaxınlarda fəxri ad veriləndə də ondan yan keçmişdilər. Teatrın müdiri deyirdi ki, mədəniyyətin baş məmuru deyirmiş, siyahı çox uzun olduğundan adamların yarısı qalıb gələn dəfəyə. Guya Qismət Əlinin də soy adı əlifbada axırda olduğuna görə, düşüb həmin ad verilməyənlərin siyahısına. Amma deyəsən məsələ bunda idi ki, o biri qalan siyahıya ad vermək məsələsi də qalmışdı qum göyərənə... Guya başdakı adam bu dəfə siyahıya qol çəkəndə çox əsəbiləşib və deyib:

- Canım, belə də iş olar? Bu məmləkətdə hamının fəxri adı oldu. Heç olmasa bir az fəxri adı olmayan da olsun də. Yoxsa adamlar arasında ayrı-seçkiliyi necə saxlamaq olar?

Bax, bu sözləri eşidən Qismət Əlinin də ümidi tamam kəsilmişdi. Kim bilir, bəlkə də başdakı adamın adından bunu belə deyirdilər. Bəlkə o kişi heç elə söz deməmişdi. Axı o, elm-təhsili, ədəbiyyatı, incəsənəti, idmanı sevəndi. Başdakı müdirin adından axır vaxtlar məmurlar yalandan o qədər istifadə edirlər ki... Adam qalır çaş-baş... Ancaq məsələ belə idi ki, teatrın müdiriyyətinə, əyalətin baş məmuruna və lap yuxarıda əyləşənlərə çox da inanmayan Qismət Əli yeni quruluş verdiyi tamaşanı elə özü üçün yubiley sayağı bir şey fikirləşmişdi. Bu tamaşa da teatrda rəssam kimi onun yubiley tamaşası, yəni əllinci quruluşuydu.

- Bəli, bu gün teatrda "Millətin ziyalıları və ya zavallıları" tamaşasının premyerası, ilk tamaşası olacaqdı. Hətta əyalətin baş məmuru özü də gəlməyə söz vermişdi. Onu da demişdi ki, tamaşadan sonra teatr işçilərinə bir yaxşı banket verəcək. Kasıbçılıqdan uzun müddət dillərinə ət, balıq dəyəməyən teatr işçiləri bundan sevinmişdi. Ona görə də teatr işçiləri premyeradan çox, axşamkı banket haqqında fikirləşir və baş məmurla görüşəcəklərinə sevinirdilər. Baxmayaraq ki, teatrın binası ilə, əyalətin baş məmurunun binasını bir yol ayırırdı, amma nə sirr idisə teatr işçiləri illərlə onun qəbuluna düşə bilmirdilər ki, öz dərdlərini, sərlərini desinlər. Teatr işçisinin də dərdi, səri nə ola bilər? Bir az pul, əmək haqlarının artırılması və bir az da diqqət, qayğı... Özündən deyən aktyorlar isə baş məmurun arxasınca asıb-kəsirdilər ki, ürəklərində yığılıb qalan etirazlarının bir hissəsini axşamkı tamaşada "Millətin ziyalıları və ya zavallıları" vasitəsilə deyəcəkdilər. Lap baş məmurun astarına kimi. Qoy o da gedib, məmləkətin başçısına çatdırsın. Çatdırsın ki, axı belə yaşamaq olmaz... Axı bu "tula payı" olan maaşla ailə saxlamaq, sanballı obrazlar yaratmaq olmaz. Tamaşada deyə bilməyəcəklərini də özündən deyən aktyorlar banketdə döşəyəcəkdilər əyalətin baş məmuruna. Bunları eşidən teatrın müdiriyyətini isə qorxu almış, canına birə düşmüşdü. Öz-özünə deyirdi:

- Əgər artistlər belə sarsaqlıq eləsələr, yəqin ki, baş məmu mənə əsəbləşəcək. Götürüb mitilimi atacaq bayıra. Axı, ağacın iki başı var. Daha bilməyəcək ki, mən yazığın heç nədən xəbəri yoxdu... Yaxşı, mən köpək oğlu neynəyim? Əgər məni işdən çıxartsalar özümə harda iş tapacam? Ay Allah, bu nə zəmanədi biz düşmüşük? Axı niyə belə oldu?..

Qismət Əli də axşamkı premyeranı və ondan sonrakı banketi çox səbirsizliklə gözləyirdi. O da hökmən imkan tapıb öz yubileyi və fəxri adı ilə bağlı əyalətin baş məmurundan xahiş edəcəkdi. Lazım gəlsə, hətta ona yalvaracaqdı ki, yubileyini keçirsinlər. Fəxri ad versinlər. Axı iyirmi beş il idi ki, bu xaraba əyalətdə külüng vururdu Qismət Əli. Onun tələbə yoldaşları hansılar ki, Qismət Əlidən istedadca zəif idilər, şəhərdə qalıb artıq özlərinə fəxri ad da, ev də alıblar. Amma Qismət Əlini hələ də bir xoş gün görmədiyi dədə yurdu çəkib bura gətirmişdi. Hər dəfə işləri çətinə düşəndə, daha doğrusu "tini düz olanda" Qismət Əli ağzına gələn söyüşləri dədə yurdu haqqında deyirdi...

Teatrın müdirinin də bu gün səhərdən neyçünsə dalağı sancırdı. Ürəyində bir qorxu vardı ki, əgər əyalətin baş məmuru bu gecə tamaşaya gəlsə, nə isə əcaib-qəraib bir xoşəgəlməz hadisə baş verəcək. Özü də axır vaxtlar teatrın müdiri, aylıq haqq-hesabı, lazım olan yerlərə çatdıra bilmirdi. Yuxarıdakıların da ağzı ondan əyilmişdi... Elə bir bəhanə axtarırdılar ki, onu işdən çıxarsınlar.

Günün ikinci yarısında belə məlum oldu ki, əyalətin baş məmuru bu axşam tamaşaya gələ bilməyəcək. Səbəbi də budur ki, fövqəladə iclas çağırılıb. Ona görə də nə baş məmur nə özü, nə də əsabələri "Millətin ziyalıları və ya zavallıları" tamaşasının premyerasında ola bilməyəcəklər. Özü də heç məlum deyil ki, daha nə vaxt teatra gələ biləcəklər. Çünki artıq baş məmurun bu əyalətdən getməsi söhbəti deyəsən reallaşırdı...

Başqa bir dəhşətli xəbər də bu idi ki, tamaşadan sonra heç banket də olmayacaqdı. Bunu eşidən teatr işçiləri dəvəsi ölmüş ərəb kimi hamısı yazıqyazıq bir-birinə baxırdılar... Paytaxtdan əli boş cibində gələn, cavan müəllif də boynunu büküb bir küncdə dayanıb siqaret çəkirdi. Tez-tez gözündən sürüşüb düşən eynəyini burnunun üstünə qaldırır və hərdən də ah çəkirdi... O da mat qalmışdı bu məmləkətin, bu əyalətin və yuxarıda oturan məmurların işlərinə... Oyunlarına... Hirsindən əlindəki ucuz siqaretin tüstüsünü acgözlüklə ciyərlərinə çəkirdi. Çox vaxt da tüstü nə ağzından, nə də burnundan çıxırdı... Təəccüb qalası iş də o idi ki, qarnı belinə yapışan və bir dəri, bir sümük olan müəllifin tüstü harasından çıxırdı?..

Teatrda bir sevinən vardısa, o da müdir idi. Hərçənd ki, o, özü də yeyib-içən adam idi. Amma müdir ona görə sevinirdi ki, deyəsən bu "ütüdən" salamat çıxmışdı. Yəni bu "ütü" ondan sovuşmuşdu...

İlk tamaşaya ancaq teatr işçilərinin qohum-əqrəbaları, dostları, tanışları və bir də payızın soyuğundan həyətdə gəzməkdən üşüyən bir-iki "sevgililər" gəlmişdi. Onlar da özlərini vermişdilər lap axırıncı cərgələrə və "öz işlərində" idilər... Qabaq sıralarda isə vur-tut otuz beş-qırx adam əyləşmişdi. Hamısı da soyuq zalda palto-papaqla oturmuşdular. Onlar səhnədə qısa qol paltarlarda, hətta plyaj səhnəsində alt tuman-köynəkdə olan və tir-tir əsən aktyorlara, aktrisalara baxırdılar. Baxır və onlara yazıqları gəlirdi. Elə bil zalda əyləşənlər onların əvəzinə də üşüyürdülər. Hətta bir aktyorun arvadının dodağının altında ancaq ucadan dediyi, "Allah kəssin belə çörək qazanmağı" sözlərini eşidən zaldakı tamaşaçılar və səhnədəki aktyorlar tamaşanın lap gərgin yerində güldülər. Elə güldülər ki, sonra o səhnəni heç lazım olan kimi daha oynaya da bilmədilər...

(Ardı var)

Ağalar İDRİSOĞLU

Azad Azərbaycan.- 2023- cü il.- 11 may.- S. 6.